

# "Səfir olmaq çox həyəcanlı və qürurvericidir"

## Tünzalə Ağayeva: "İslam Həmrəyliyi Oyunlarının ulduz səfiri olmağımın arxasında son illərin təcrübəsi dayanır"

**"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının başlanmasına bir ay qalıb. 12-22 may tarixləri arasında keçiriləcək oyunlara hazırlıq davam edir. Oyunların ulduz səfiri seçilən əməkdar artist Tünzalə Ağayeva yarışın könüllüləri ilə birgə "Salam, Bakı - Könüllülərin himni"ni ifa etdilər. Ulduz səfirimiz bu himnə könüllülərlə birlikdə klip də çəkdirib. Milli musiqi alətlərimiz olan tar, qaval, zərb alətlərinin də ifasının yer aldığı klip böyük marağa səbəb oldu.**

**Əməkdar artistlə əlaqə saxlayıb, bu layihə barədə təəssüratlarını soruşduq.**

### MƏNİM GƏNCLİYİM BELƏ KEÇMƏYİB

**- Tünzalə xanım, İslam Həmrəyliyi Oyunlarının könüllüləri ilə birgə "Salam, Bakı - Könüllülərin himni"ni izlədik. Həqiqətən də möhtəşəm bir layihədir. Maraqlıdır, bu himn necə ərsəyə gəldi?**

- Mənim İslam Həmrəyliyi oyunlarının ulduz səfiri olmağımın arxasında son illərin səfirlik təcrübəsi dayanır. Bilirsiniz ki, "Bakı 2015" Avropa oyunlarında, "Formula-1" yarışlarında, 2014-cü ildə milli olimpiya komitəsinin bir neçə sosial proqramlarında ulduz səfir kimi iştirak etmişəm. Hər dəfə ölkəmiz üçün belə əhəmiyyətli hadisələr məni yaradıcı bir insan kimi biganə qoymur və təbii ki, yaradıcılığıma da təsir edir. Bununla bərabər bir növ məni motivasiya edir və ilhamlandırır. Mən də bir ifaçı kimi ölkəmizdə keçirilən bu önəmli layihələrə öz töhfəmi vermək istəyirəm. Mahnı da elə bir janrdır ki, verilən mesajları, keçirilən tədbirlərin dəyərlərini, bütün millətlərin bir araya gəlməsini, sülh, barış, sevgi kimi dəyərləri musiqidə çox gözəl vəsf və əks etdirmək olur. Bu, həm PR, həm də musiqi ilə qəlbləri qazanmaq baxımından gözəl bir vasitədir. Musiqi hər zaman insanları bir araya toplayır. Onun dinləyicilərinin millətindən, dinindən, həyat tərzindən fərqli olmasına baxmayaraq. Təbii ki, İslam Oyunlarının ulduz səfiri kimi də bu mövzu məni ilhamlandırdı. Bu dəfə qərara gəldim ki, məhz oyunların könüllülərinə mahnı həsr edim. Çünki könüllülər bütün beynəlxalq tədbirlərdə böyük rol oynayırlar. Könüllülərsiz heç bir tədbir həyata keçmir. Könüllülərin sıralarında olan gənclərimiz bizim övladlarımızdır. Onlar da vətənə faydalı olmaq istəyirlər, bu baxımdan çox həvəslidirlər. Bu oyunlar zamanı onlara yaradılan şərait dövlət tərəfindən gənclərimizə verilən bir fürsətdir. Belə ki, qatıldıqları beynəlxalq layihələrdə onlar dil öyrənirlər, təcrübə qazanırlar. Bundan başqa, ünsiyyət qurmağı, istedadlarını və bacarıqlarını üzə çıxarmaq imkanı əldə edirlər. Bu oyunlar vasitəsi ilə onlar özlərini göstərə bilirlər, möhkəmlənir, güclənirlər. Mən onlarla sıx ünsiyyətdə olduğum üçün görürəm ki, gənclər bunu yüksək dəyərləndirirlər. Şəxsən özümdən deyə bilərəm ki, mənim gəncliyim belə keçməyib. Hərdən könüllülərə deyirəm ki, mən sizin yaşınızda olanda belə könüllülük fürsətim olmayıb. Nə yaxşı ki, indiki gənclər bunu dəyərləndirirlər. Onların bu motivasiyası məni bu mahnını yazmağa cəlb etdi. Qeyd edim ki, "Salam, Bakı" adlı mahnının sözləri İslam Oyunları Əməliyyat Komitəsinin icraçı direktoru Elçin Səfərova məxsusdur. Fürsətdən istifadə edib, ona təşəkkür edirəm. O da bu mahnının uğurlu alınmasına çox sevinir. Ən əsası, könüllülər bu mahnıdan məmnundurlar. Şadam ki, bu mahnını yüksək səviyyədə təqdim edə bildik.

### BU LAYİHƏDƏ YENİ DOSTLUQLAR YARANDI

**- Bu himndə "Səs Azərbaycan" yarışmasından olan iştirakçıları gördük. Onlar da könüllüdürlər?**




- Bəli, bu layihədə onlar da var. Klipdə siz Samirə Əfəndini, Nərmin Kərimbəyovanı, Ləman Dadaşovanı, Tofiq Hacıyevi və Ruslan Alışanovu görürsünüz. Bunlar yaddaqalan səslər və simalardır. Artıq onların kifayət qədər tamaşaçı auditoriyası var. Adlarını qeyd etdiyim ifaçılar da bu vətənin övladlarıdırlar, onlar da könüllü hesab olunurlar. Mahnıda mən tək deyil, könüllülərlə oxuyuram. Bu mahnı heç vaxt studiya, səhnə görməyən gənclər üçün yaddaqalan bir hadisə oldu. Bəlkə də bu mahnı onların həyatında yeni bir qapının açılmasında bir vasitə olacaq. Onların yeni istedadını üzə çıxarmaq üçün bir vasitə olacaq. Bu himnə səhnə, müsabiqə görmüş daha təcrübəli gənclərimiz də qoşuldu. Onlar da könüllülərə oxumaqda dəstək oldular. Bu layihədə yeni dostluqlar yarandı. Düşünürəm ki, bu, təqdirəlayiq haldır ki, "Səs Azərbaycan" mahnı müsabiqəsinin finalçıları da layihədə iştirak ediblər. Mən onlara ayrıca təşəkkürümü bildirirəm.

**- Hazırda İslam oyunları çərçivəsində hansı işlər gedir?**

- Tanınmış simaların beynəlxalq layihələrdə səfir olması, çıxış etməsi kimi bir təcrübə var. Yeni ulduzlar, ictimai ulduzlar, idmana aid olmayan və idmanla təmasda olan insanlar belə mötəbər hadisələrin, layihələrin piarını aparırlar. Onların da bu baxımdan dəstəyi olub. Məni izləyən insanlara bu yarışların ölkəmiz üçün gözəl hadisə olduğunu, Azərbaycan İslam mədəniyyətinin qədim və eyni zamanda müasir mədəniyyət olmasını çatdırırıq. İslam sevgi, paylaşmaq, həmrəylik, birlik, gözəllik deməkdir. Biz bu yarışlarda İslamın dəyərlərini göstərməyə çalışırıq. Belə bir işdə səfir olmaq çox həyəcanlı və qürurvericidir. Bu iş mənim üçün çox məsuliyyətlidir. Nə qədər gözəllik haqda danışırsansa, bir o qədər də nümunəyə çevrilirsən. Sən həyat tərzinlə bunu göstərməlisən. Mənə bu etimadı göstərdiklərinə görə dövlətimizə və rəhbərliyimizə minnətdarlığımı bildirirəm. Bundan başqa, Əməliyyat Komitəsinə təşəkkürümü bildirirəm.

**- İdmanla necə, məşğul olursunuzmu?**

- Əlbəttə. Həftədə 3 dəfə idmanla məşğul oluram.

**- Bu yarışların keçirilməsi ölkəmizə nə qazandıracaq?**

- Azərbaycan dünyaya öz qapılarını açır, hər kəsi qəbul edir. Təsəvvür edin ki, biz 57 ölkəni qəbul edirik ki, müsəlman dünyası bu yarışlarda bir araya gəlsin. Dünyada yeridilən siyasətlə də müsəlman ölkələrini bir-birinə düşmən etməyə çalışırlar. Ancaq dəfələrlə qeyd etmişik ki, heç kimin torpağında, mədəniyyətində gözümüz yoxdur. Biz sevgi, barış istəyirik. Hər kəsin evində, torpağında rahat yaşamasının tərəfdarı olan bir millətik. Azərbaycan elə bir məmləkətdir ki, heç bir millət burada sıxıntı yaşamayıb. Bədxah qonşularımız belə uzun müddət ölkəmizdə yaşayıb. Bir müddət Azərbaycanda yaşayan ermənilər də deyirlər ki, biz Azərbaycanda həyat görmüşük. Azərbaycan çox tolerant ölkədir. Hər hansı çətinliyinə baxmayaq hər zaman dünyaya qapısını açıb, duz-çörəklə qonağını qarşılayıb. Bu dəyərlər haqda danışmaq çox gözəldir. Biz gəncləri də bu yarışlar üçün motivasiya etməyə çalışırıq. Onlara bu dəyərlərimizin qədrini bilməyi aşılayırıq. Onlara deyirik ki, elə ölkələr var ki, sizin yaşdakı gənclər çox acınacaqlı vəziyyətdədirlər. Onlar sizin bəsit gördüyünüz həyat tərzini arzulayırlar. Bu, onlar üçün əlçatmazdır. Biz onların halını görürük. Çox istəyərik ki, əlimiz çox adama çatsın ki, onlarla yardımlaşaq.

İslam Oyunlarında həmrəylik var. Söhbət təkcə beynəlxalq həmrəylikdən getmir, millət olaraq içimizdəki həmrəylikdən gedir. Bu, çox önəmlidir. Millətin gücü buradan başlayır. Dünya bizi yaxşı qiymətləndirə bilər. Etdiyimiz işləri yüksək qiymətləndirməyi də bacarar. Əsas odur ki, daxildən bir-birimizin əlindən tutmağı nə dərəcədə bacarırıq. Bu, çox önəmlidir. "Bakı 2015" Avropa Oyunlarında gördüm ki, könüllülərimiz kifayət qədərdir. İnsanların statusundan, sosial durumundan fərqli olmayaraq, hamının yan-yana oturub yarışlarda necə azarkeşlik etmələrini gördüm. Bu o qədər qürurverici haldır ki, sözlə izah etmək mümkün deyil. Millətimiz var olsun ki, bu birliyi nümayiş etdirək. Bu yarışlarda maddi və mənəvi baxımdan Azərbaycanımız qazanır. Bəli, hər tədbirin çətinlikləri var. Heç nə insana asan başa gəlmir. Amma biz buna qadiriksə, gücümüz çatırsa, niyə də etməyək? Azərbaycanın necə bir ölkə olduğunu göstərmək üçün bu oyunlar yaxşı vasitədir.

**- "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə start verilib və bizim bölgələrimizdə davam edir. Maraqlıdır siz bu səyahətdə iştirak edirsinizmi? Bu səyahət çərçivəsində sizin çıxışlarınız gözlənilirmi?**

- Əlbəttə, bu yarışlar çərçivəsində bir sıra tədbirlərimiz gözlənilir. Ancaq təəssüf ki, bunların hamısında iştirak edə bilmirəm. Müğənni olaraq mənim öz səfərlərim və işlərim də var. Maksimum şəkildə çalışıram ki, oyunlar çərçivəsində keçirilən tədbirlərin hamısına çatdırım. Hazırda Bakıda deyiləm. Maraqlı proqramlar həyata keçirilir. Təbii ki, mən də bunların bir neçəsində iştirak edəcəyəm.

**- Bizə maraqlıdır, Tünzalə xanım ən çox hansı idman növünün tamaşaçısı olacaq?**

- Sevinirəm ki, bizim çox qədim döyüş növü olan zorxana beynəlxalq yarış statusunu alır. Çox yaxşı piarı olacaq. Dünya bu idman növünü görəcək. Daha geniş şəkildə təbliğ olacaq. Çox istəyirəm ki, bu idman növü ölkəmizin hüdudlarından çıxsın. Çalışacağam ki, bu idman növünə baxa bilim. Bir də haradakı idmançılarımızın medal qazanma şansı var, o yarışlara getməyə çalışacağam. Bütün idmançılarımıza azarkeşlik edirəm. İndidən hamısına uğurlar arzulayıram, qoy layiqli olan qazansın. Oyunlarda uduzan tərəf yoxdur. Burada hər kəs qazanır. Bütün idmançılarımıza uğurlar arzulayıram.

**Xəyalə Rəis**

